

# Zəhmətin bəhrəsi

**Yerlərdə sənətini ürəkdən sevən, ona bütün varlığı ilə bağlı olan mədəniyyət işçilərimiz çoxdur.Hər dəfə onlarla görüşəndə fərəhlənirsən: "Nə qədər ki, milli-mənəvi dəyərlərimiz belələrinin əlindədir,bizə zaval yoxdur.Mədəniyyətimiz də inkişaf edəcək, yeni istedadlarımız da yetişəcək..."**

Gülağa müəllimi həmkarlarından fərqləndirən odur ki, o yalnız musiqimizin tədrisi ilə məşğul olmaqla qalmır, həm də yüksək mütaliəsi, sərrast, ürəyəyatımlı nitqi ilə də seçilir. Təsadüfi deyil ki, rayonda keçirilən bütün tədbirlərdə fəal iştirak edir, hər çıxışı tamaşaçılar tərəfindən sonsuz maraqla qarşılanır.

Söhbət Qobustan rayon Təklə kənd uşaq musiqi məktəbinin direktoru Gülağa Cəbrayılovdan gedir.

Gülağa Hili oğlu Cəbrayılov 1959-cu il iyunun 29-da Qobustanın Təklə kəndində anadan olub. ADPU-nun məzunudur. Tələbəlik illərində universitetin özfəaliyyət kollektivinin solisti olub. 1981-1993-cü illərdə Təklə kənd orta məktəbində müəllim işləyib. 1985-ci ildə təhsildəki uğurlarına görə SSRİ XTNS-nin bürünc medalına layiq görülüb.

Sumqayıt musiqi texnikumunu bitirib. 1988-ci ildən o həm də musiqi məktəbində qarmon müəllimi kimi çalışıb. 1993-1994-cü illərdə Hərbi komissarlıqda gənclərin hərbi xidmətə çağırışa hazırlıq üzrə baş təlimatçısı olub. 1994-cü ildən Təklə kənd uşaq musiqi məktəbinin direktorudur. 2009-cu ilin aprel ayında keçirilən xor kollektivlərinin VI Ümumrespublika müsabiqəsinin yekununa görə Mədəniyyət və Turizm Nazirliyinin Fəxri Fərmanı ilə təltif edilib.

Qobustan

Təklə uşaq musiqi məktəbi 1985-ci ildə Şamaxı rayon uşaq musiqi məktəbinin filialı kimi fəaliyyətə başlamışdır. 1988-ci ildən müstəqil musiqi məktəbinə çevrilmişdir. Hazırda burada 8 ixtisas- fortepiano, tar, kaman, qarmon, saz, balaban, nağara və səs ixtisasları üzrə 169 nəfər şagird oxuyur. Onların təlim-tərbiyəsi ilə 32 nəfər müəllim məşğul olur.

- Atamın və əmimin gözəl səsləri olub, -deyə Gülağa müəllim söhbətini davam etdirir. - Onları eldə-obada yaxşı tanıyırlar. Bəlkə də elə bunun təsirindəndir ki, mən də musiqiyə könül verdim. Bu



Sınaq qarşısında





Keçirilən dərsin təkrarı

ənənə indi də davam edir. Övladlarım müxtəlif sənət sahibləri olsa da, musiqi məktəbində kamança, qarmon, fortepiano və tar ixtisaslarına yiyələniblər. Bütün bunlar məni bir ata kimi nə qədər qürurlandırırsa, məktəbimizin qazandığı uğurlar bir o qədər fərəhləndirir. Bu işdə qabaqcıl müəllimlərimiz Zaur Cəfərov, Vüqar Abdullayev, Göyçək Ədilova, Elbrus Məlikov, Zaur Quliyev, Coşqun Bünyatov, Ceyhun Səfərov və başqalarının xüsusi zəhmət payı var.

Məktəbimiz rayon tədbirlərində, ümumrespublika müsabiqələrində yaxından iştirak edir. Bu işdə müəllim və şagird kollektivlərindən ibarət xalq çalğı alətləri ansambllarımızın imkanlarından geniş istifadə olunur.

Söhbət zamanı Gülağa Cəbrayılov dövlətimizin mədəniyyətə, onun inkşafına hərtərəfli qayğı və diqqət göstərdiyini də xüsusi məmnunluqla qeyd etdi:

-Son illər nə qədər möhtəşəm təhsil müəssisələri tikilmiş, abad parklar salınmış, mədəniyyətimizin təbliği və inkişafı, dünyada tanıdılması istiqamətində mədəniyyət günləri, musiqi bayramları, festival və müsabiqələr təşkil olunmuş, milli-mədəni dəyərlərimizin qorunması sahəsində bir-birindən maraqlı layihələr həyata keçirilmişdir.

Bütün bunlar bizi daha yaxşı çalışmağa, balalarımızın təlim və təhsilni yüksək səviyyədə qurmağa, rəhbərliyin verdiyi tapşırıqlara ləyaqətlə əməl etməyə, vəzifəmizə məsuliyyətlə yanaşmağa sövq edir.

***Qobustanda olarkən rayon mədəniyyət və turizm şöbəsinin müdiri Şəhriyar Soltandan musiqi məktəbinin fəaliyyətini necə dəyərləndirməsi ilə də maraqlandıq. O, Gülağa müəllimin əməyini yüksək qiymətləndirdi və bildirdi ki, kollektivin uğurlarında onun danılmaz rolu vardır...***

● Tural



Xor müsabiqəsinə hazırlıq